

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 222 (21.123)**

***21 noyabr 2014-cü il, cümə***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 20-də Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxı və Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikkini qəbul edib.

Görüşdə Azərbaycanda idmanın inkişafına dövlət səviyyəsində göstərilən diqqətin önəmi qeyd olundu, ölkəmizin bu sahədə beynəlxalq əməkdaşlığa verdiyi töhfədən danışıldı, Bakıda keçiriləcək Birinci Avropa Oyunlarına yüksək səviyyədə hazırlıq işləri görülməsindən məmnunluq ifadə olundu.

Sonra Tomas Bax Beynəlxalq Olimpiya Komitəsi tərəfindən dövlət başçıları üçün hazırlanmış xatirə medalını Prezident İlham Əliyevə təqdim etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu xatirə medalının təqdim olunduğu ilk dövlət başçılarından biridir.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 20 noyabr tarixli Sərəncamı ilə ədliyyə orqanlarında qulluq keçərkən fərqləndiklərinə, ədliyyə sistemində elm, səhiyyə sahələrinin inkişaf etdirilməsində fəal iştirak etdiklərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı da vardır.

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Əliyev Niyaməddin Cabbar oğlu

## Heydər Əliyev Muzeyində “Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında” mövzusunda keçilən açıq dərslər davam etdirilir



***“Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq”.*** Xalqımızın ümummilli lideri Heydər Əliyevin “Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında” adlı müraciətindən götürülmüş bu fikirlər müstəqil Azərbaycan Respublikasının tarixi keçmişini dərindən öyrənməyə sövq edən, gələcək inkişafımızın istiqamətlərinə işıq tutan ən dəyərli sənəddir. Müraciətdə milli tariximizin bütün dövrləri kimi, ötən əsrin 90-cı illəri də dəqiq incəliklə təhlil edilir.

Dağlıq Qarabağ münaqişəsi və bu münaqişənin ədalətli həlli də ulu öndər Heydər Əliyevin ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində fəaliyyətinin əsasını təşkil edib.

Dünən Heydər Əliyev Muzeyində keçilən açıq dərsdə Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin IX sinif şagirdləri iştirak edib. Məktəbin tarix müəllimi Səadət Hacıyeva bildirib ki, Dağlıq Qarabağ münaqişəsi XX yüzilliyin tarixinə ən faciəli münaqişələrdən biri kimi daxil olub. 1988-ci ildə təhrikçilik yolu ilə başlanmış bu münaqişənin kökləri uzun illər bundan əvvəllərə gedib çıxır. Ölkəmizin tarixi torpaqlarının ilhaqı sayəsində özlərinə dövlət quran ermənilər Sovetlər Birliyi dövründə də Dağlıq Qarabağ Vilayətinin Ermənistana birləşdirilməsi yönündə gizli və ya açıq şəkildə fəaliyyət aparıblar. Ancaq xalqımızın ümummilli lideri Heydər Əliyevin 1969-cu ildən başlayaraq Azərbaycana rəhbərlik etməsi, eyni zamanda 1982-ci ildən Sovet İttifaqının rəhbərlərindən biri olması mənfur qonşularımızın ərazi bütövlüyümüzə yönələn bütün iddialarının qarşısını alıb. Dahi şəxsiyyətin planlı şəkildə Kremldən uzaqlaşdırılması bəhs edilən münaqişənin yenidən qızışmasına rəvac verib.

Qeyd olunub ki, 1988-1993-cü illərdə Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı Dağlıq Qarabağ münaqişəsinin həllində yeni bir səhifə açıb. Həmin il silahlı münaqişənin genişlənməsi nəticəsində BMT Təhlükəsizlik Şurası tərəfindən dörd qətnamə qəbul edilib. Bu sənədlərdə Azərbaycan Respublikasının ərazi bütövlüyü təsdiq edilib və “Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu” ifadəsi qəbul olunub. Həmin ifadə BMT Baş Assambleyası tərəfindən hər il qəbul edilən “Birləşmiş Millətlər Təşkilatı ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq” adlı qətnamələrə müntəzəm olaraq daxil edilir.

Vurğulanıb ki, bu gün Heydər Əliyev ideyalarının layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla yürüdülən siyasi xətt ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasına, qaçqın və məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıtmasına hesablanıb. Ölkəmizin sürətli inkişafı, qüdrətli orduya sahib olması, eyni zamanda dünyanın nüfuzlu ölkələri sırasında özünə layiqli yer tutması tezliklə bu problemin də ədalətli həll olunmasına imkan verəcəkdir.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış oldular.

**Səbuhi HƏSƏNOV**

***Naxçıvan Dövlət Universitetində Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 22-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər elmi-praktik konfransla yekunlaşıb.***

## Dünənin, bu günün, gələcəyin partiyası

Konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq ölkədə mürəkkəb ictimai-siyasi şəraitin hökm sürdüyü bir dövrdə yaradılan Yeni Azərbaycan Partiyasının tarixinə nəzər salıb. Qeyd olunub ki, Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışan ulu öndər Heydər Əliyev yeni partiyanın yaradılması ilə bağlı çoxsaylı ziyalıların müraciətini cavabsız qoymadı, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Qısa zamanda partiya, ümummilli lider Heydər Əliyevin dediyi kimi, Azərbaycanın həyatında ən güclü, ən böyük intellektual səviyyəyə, ən böyük hörmətə malik olan siyasi partiyaya çevrildi. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası ölkənin müstəqil dövlət quruculuğunda və hərtərəfli inkişafında, dünyada böyük siyasi nüfuz qazanmasında mühüm rol oynayıb.

YAP universitet şəhərciyi ərazi ilk təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Kamal Camalov “Naxçıvanda tələbə-gənclik” mövzusundakı məruzəsində partiyanın ziyalı, vətənpərvər gəncliyin formalaşmasındakı müstəsna rolundan bəhs edib. Məruzəçi bildirib ki, ümummilli liderin partiyanın II qurultayında söylədiyi “Gənclər bizim partiyamızın sıralarında xüsusi qayğıya malik olmalıdırlar” fikri partiyanın əsas prinsiplərindən biri olub. Müasir gənclik isə yekdilliklə rifah və tərəqqi partiyası olan Yeni Azərbaycan Partiyasını seçərək müstəqil Azərbaycanın tərəqqisi üçün əzm və iradə ilə fəaliyyət göstərir.

Konfransda YAP universitet şəhərciyi ərazi ilk təşkilatı gənclər birliyinin sədr müavini, magistrant Elgün Tağıyev “YAP tələbə-gəncliyi və universitet dünyası”, universitetin Tələbə Elmi Cəmiyyətinin sədri, “hüquq” ixtisasının IV kurs tələbəsi Ramazan Abdullayev “YAP üzvü olan tələbə-gənclərin elmi fəaliyyəti: uğurlar və vəzifələr”, Tələbə İdman Şurasının sədri, “bədən tərbiyəsi” ixtisasının III kurs tələbəsi Nicat Allahverdiyev “Tələbə-gənclər idmanda” mövzularında məruzələrlə çıxış ediblər. Məruzələrdə partiya sıralarında birləşən tələbə-gənclərin ölkənin ictimai-siyasi həyatındakı fəallıqlarından, elm və təhsildə, mədəniyyət və idman sahələrində qazandıqları nailiyyətlərdən danışılıb.

Sonda YAP sıralarına qəbul olunmuş tələbələrə üzvlük vəsiqələri təqdim edilib.

**Mehriban SULTAN**

## 2014-cü ilin yanvar-oktyabr ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

İqtisadi inkişafın əsas göstəricisi kimi 1 milyard 808 milyon 616 min 500 manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur ki, bu da 2013-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 1,1 faiz çoxdur.

Hər bir nəfərə düşən Ümumi Daxili Məhsulun həcmi 2013-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə 0,7 faiz artaraq 4134,9 manata (5272,1 ABŞ dollarına) çatmışdır.

* * *

Muxtar respublikada yaradılan Ümumi Daxili Məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 743 milyon 886 min manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 1,5 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində əsas kapitala 772 milyon 211 min manat həcmində investisiya yönəldilmişdir ki, bunun da 678 milyon 610 min manatı və ya 87,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

Cari ilin yanvar-oktyabr ayları ərzində informasiya və rabitə xidmətlərinin həcmi 39 milyon 715 min manat olmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 33 milyon 600 min manat olmaqla bir il öncəki göstəricini 0,9 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-oktyabr ayları ərzində 296 milyon 201 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstəricini 6,1 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada 16,2 min ton ət (diri çəkidə), 72,8 min ton süd istehsal edilmiş, 2013-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə ət istehsalı 1,9 faiz, süd istehsalı 0,4 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam etməkdədir. Bu ilin yanvar-oktyabr aylarında muxtar respublikada əhalinin gəlirləri 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz artaraq 1 milyard 363 milyon 282 min manat, onun hər bir nəfərə düşən həcmi isə 0,6 faiz yüksələrək 3116,8 manat təşkil etmişdir.

* * *

2014-cü ilin yanvar-oktyabr aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 388,2 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,2 faiz artmışdır.

* * *

İqtisadi münasibətlərə paralel olaraq bank işi təkmilləşməkdədir. 1 noyabr 2014-cü il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 36178-ə çatmışdır ki, bunun da 33148-i və ya 91,6 faizi aktiv hesablardır. 2014-cü ilin yanvar-oktyabr ayları ərzində açılmış 15866 bank hesabının 15810-u və ya 99,6 faizi aktiv hesab olmuşdur.

1 noyabr 2014-cü il tarixə muxtar respublikada POS-terminalların sayı 836-ya çatmışdır ki, bu da 1 yanvar 2014-cü il tarixdəki göstəricidən 588 ədəd çoxdur.

* * *

Muxtar respublikada iqtisadi siyasətin əsas istiqaməti kimi xarici ticarət əlaqələrinin genişləndirilməsi davam etdirilməkdədir. Ötən dövr ərzində muxtar respublikanın 395 milyon 60 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi olmuşdur ki, bu da bir il öncəki göstəricini 2,1 faiz üstələmişdir. İxracın həcmi son bir il ərzində 5,1 faiz artaraq 302 milyon ABŞ dollarını ötmüş və xarici ticarət üzrə 210 milyon ABŞ dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır. İdxalın həcmi bir il öncəyə nisbətdə 6,6 faiz azalmışdır.

* * *

Sahibkarlıq strukturlarının kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2014-cü ilin yanvar-oktyabr aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 44 milyon 448 min manata yaxın həcmdə kreditlər verilmişdir ki, bu da 2013-cü ilin müvafiq dövründəki göstərici ilə müqayisədə 23 faiz çoxdur.

* * *

2014-cü ilin yanvar-oktyabr aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 4 milyon 909 min 600 manat olmuşdur ki, bu da 2013-cü ilin yanvar-oktyabr aylarındakı göstəricidən 561 min 300 manat və ya 12,9 faiz çoxdur.

* * *

Qeyd olunan dövrdə muxtar respublikaya 305 min 746 nəfər turist gəlmişdir. Bu, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,1 faiz və ya 6279 nəfər çoxdur.

* * *

1 oktyabr 2014-cü il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 5207 nəfər və ya 1,2 faiz artaraq 439161 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

**Ulu öndər Heydər ƏLİYEV:** ***Yeni Azərbaycan Partiyasına xidmət etmək Vətənə, millətə, müstəqil Azərbaycan dövlətinə xidmət etmək deməkdir.***



*Yeni Azərbaycan Partiyasının yaranmasından 22 il ötür*

# Xalqın arzu və istəyindən, tarixi zərurətdən yaranan partiya

XX əsrin sonunda Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi üçün real zəmin yaransa da, 1988-1993-cü illərdə ölkə taleyüklü ictimai-siyasi problemlərlə, sosial-iqtisadi çətinliklərlə, erməni hərbi təcavüzü ilə üzləşdi. Paytaxt Bakıda bacarıqsız, səbatsız və siyasi cəhətdən səriştəsiz rəhbərlərin yürütdükləri siyasət nəticəsində ölkədaxili münaqişələr səngimir, siyasi qruplaşmaların xəyanəti nəticəsində torpaqlarımız düşmən tapdağına düşür, qaçqınların və məcburi köçkünlərin sayı çoxalırdı. Cəmiyyətdə anarxiya və xaos, vətəndaş itaətsizliyi hökm sürürdü. Belə bir tarixi dövrdə yenicə müstəqillik əldə etmiş respublikamızda 30-dan artıq siyasi partiya rəsmi qeydiyyatdan keçsə də, onlar Azərbaycan dövlətçiliyini qoruyub möhkəmləndirəcək amalda və iqtidarda deyildilər. Nə Vəzirov-Mütəllibov hakimiyyəti, nə də Xalq Cəbhəsi-Müsavat cütlüyü Azərbaycanı düşdüyü ağır siyasi və iqtisadi durumdan xilas etmək gücündə deyildi. Müharibə şəraitində olan ölkəmizdə 15 ay ərzində 4 dövlət başçısı və 5 müdafiə naziri dəyişilmişdi. Bütün bunlar Azərbaycanda yeni siyasi hərəkatın formalaşmasına, yeni siyasi gücə böyük ehtiyac yaratmışdı. Torpaqlarımızın toxunulmazlığı uğrunda vuruşmalı olan silahlı dəstələr hakimiyyətə iddialı şəxslərin, xarici dairələrin təsiri altında olan separatçı qüvvələrin nəzarəti altına keçir, ölkədə vətəndaş müharibəsi təhlükəsi yaranırdı.

Belə bir taleyüklü məqamda Azərbaycan milli azadlıq hərəkatının ağırlıq mərkəzi Naxçıvana keçdi. 1990-cı il iyul ayının 22-də böyük dövlət xadimi və dünya şöhrətli görkəmli siyasətçi Heydər Əliyevin Moskvadan Naxçıvana gəlməsi ilə ölkənin ağır böhrandan çıxarılması yolunda mühüm mərhələ başlandı. Ulu öndər 1990-cı il sentyabrın 30-da Azərbaycan və Naxçıvan parlamentlərinə deputat seçilməklə yenidən fəal siyasət meydanına qədəm qoydu və bir il sonra – 1991-ci il sentyabrın 3-də əhalinin təkidli xahişi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilərək muxtar respublikanı həm sosial-iqtisadi fəlakətdən qurtarmaq, həm də erməni təcavüzündən qorumaq üçün taleyüklü bir xilaskarlıq missiyasını öz çiyinlərinə götürdü. Ümummilli liderimizin yenidən siyasətə qayıdışı bir tərəfdən, bütövlükdə, cəmiyyətin sosial sifarişi idisə, digər tərəfdən bu, tarixin diktə etdiyi qaçılmaz obyektiv zərurət idi. Məhz bu zərurəti və xalqın yekdil arzusunu ifadə edən tanınmış ziyalılardan 91 nəfəri 1992-ci il oktyabr ayının 16-da "Səs" qəzeti vasitəsilə ulu öndər Heydər Əliyevə Azərbaycanı fəlakətlərdən qurtaracaq yeni bir siyasi təşkilatın yaradılmasına və ona rəhbərlik etməsinə razılıq vermək xahişi ilə "Azərbaycan Sizin sözünüzü gözləyir" adlı müraciət etdi.

1992-ci il oktyabrın 24-də "Yeni, müstəqil Azərbaycan uğrunda" proqram xarakterli çağırışı ilə xalqın səbirsizliklə, böyük inamla gözlədiyi cavabı verən ümummilli liderimiz Heydər Əliyev deyirdi: ***"Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və plüralizm şəraitində sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər. Əgər belə partiya yaradılarsa, onun fəaliyyətində fəal iştirak etməyə hazıram".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ulu öndərin bu tarixi cavabını dəyərləndirərək demişdir: ***"Bu fikirlər "Yeni Azərbaycan" uğrunda hərəkatda birləşmək üçün kifayət qədər əsas yaradırdı. Qısa müddət ərzində on minlərlə insan Heydər Əliyev şəxsiyyəti ətrafında birləşərək, Azərbaycançılıq ideologiyası ilə silahlanaraq, yuxarıdan heç bir göstəriş gözləmədən könüllü şəkildə partiyamızın təşkilatlanmasına başladı. Əhali anlayırdı ki, bu təşkilat məzmunca partiya anlayışı daşısa da, əslində, mahiyyət etibarı ilə xalqın böhrandan çıxması üçün tarixin yaratdığı yeganə şansdır".***

1992-ci il noyabrın 21-də dahi şəxsiyyət Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi, partiyanın yaradılması haqqında qərar qəbul edildi. Konfransda ulu öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı. Güclü sosial bazası, praqmatik və gerçəkliyə əsaslanan bitkin proqramı, ölkə və beynəlxalq aləmdə böyük nüfuz qazanmış, ulu öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə qədəm qoyması XX əsr Azərbaycan tarixinin mühüm hadisəsinə çevrildi. Bu hadisənin tam əhəmiyyətini dəqiq və tarixi obyektivliklə qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Yeni Azərbaycan Partiyasının yaranması Azərbaycanın siyasi həyatında mühüm bir mərhələ təşkil edir. Tarixi proseslərə güclü təsir imkanına malik olan Yeni Azərbaycan Partiyası Azərbaycan xalqının arzu və istəyindən, tarixi zərurətdən yaranmış, ulu öndər Heydər Əliyevin rəhbərliyi isə partiyamıza nüfuz və şöhrət gətirmişdir. Möhtərəm Heydər Əliyev Yeni Azərbaycan Partiyasını yaradarkən qarşıya bir məqsəd qoymuşdu: Azərbaycanın müstəqilliyini qorumaq, parçalanmasının qarşısını almaq; Azərbaycanı yaşatmaq və daha da möhkəmləndirmək. Bu şərəfli missiyanı həyata keçirən ümummilli liderimiz ölkəmizin siyasi tarix səhnəsindən silinməsinin qarşısını aldı, dövlət müstəqilliyini daimi və əbədi etdi... Müasir, müstəqil Azərbaycan və ümumxalq hərəkatına çevrilən Yeni Azərbaycan Partiyası ulu öndərimizin özündən sonra xalqımıza ən böyük töhfəsi və əmanətidir".***

Qısa zaman kəsiyində Yeni Azərbaycan Partiyası ümumxalq partiyası kimi müstəqil dövlətçilik, qanunçuluq, Azərbaycançılıq, vətənçilik, vətəndaş həmrəyliyi, sosial ədalət, həmçinin ideoloji-təşkilati baxımdan Azərbaycan cəmiyyətinin ən nüfuzlu və inanılmış siyasi təşkilatına çevrildi.

Bu gün Azərbaycanın iqtisadi inkişafının davamlı olması Yeni Azərbaycan Partiyasının iqtisadi platformasının təməl prinsipidir. Ötən dövr ərzində ölkəmizdə iqtisadi inkişafın təmin edilməsi, qeyri-neft sektorunun dinamik inkişafına nail olunması, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli istehsal və emal müəssisələrinin yaradılması, yoxsulluğun azaldılması və yüksək məşğulluq səviyyəsinin təmin edilməsi istiqamətində mühüm nailiyyətlər əldə edilmişdir. Ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcmi və xarici ticarət dövriyyəsi ildən-ilə yüksəlməkdədir. Azərbaycan ümumi daxili məhsulun artım tempinə görə dünyada liderliyi əldə almışdır. Düzgün iqtisadi strategiya nəticəsində respublikamızda maliyyə-iqtisadi sabitliyə nail olunmuş, müvəffəqiyyətlə həyata keçirilən özəlləşdirmə proqramı iqtisadiyyatımızın tərəqqisinə öz müsbət təsirini göstərmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkəmizdə 2003-cü illə müqayisədə 2013-cü ildə ÜDM-də 8 dəfə artım əldə olunmuşdur. Bu dövrdə əhalinin hər nəfərinə düşən gəlirlər 5,7 dəfə, dövlət büdcəsinin gəlirləri 9 dəfə artmış, ölkəmizin strateji valyuta ehtiyatları 53 milyard dollara, Neft Fondunda toplanan vəsait isə 36 milyard dollara çatmışdır. Təkcə bu ilin ilk 9 ayı ərzində ölkə iqtisadiyyatına 19 milyard dollar investisiya qoyulmuşdur ki, bunun da 11 milyardı daxili sərmayədir. Son 10 ildə ölkəmizdə 1,3 milyon yeni iş yeri yaradılmışdır. Bütün bu nailiyyətlərin əldə edilməsində iqtidar partiyası kimi Yeni Azərbaycan Partiyasının özünəməxsus yeri və rolu vardır.

Hazırda müstəqil dövlətimiz dünyanın əksər ölkələri ilə çox geniş siyasi-diplomatik və iqtisadi əlaqələr saxlayır. Xarici siyasət sahəsində ölkəmiz əsaslı irəliləyişlərə nail olmuşdur. Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti cənab İlham Əliyevin xarici siyasət doktrinasının ana xəttini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, ərazi bütövlüyümüzün bərpa edilməsi, bölgədə və dünyada yüksək nüfuza malik Azərbaycan dövlətinin inkişafı, milli və iqtisadi təhlükəsizliyin təmin edilməsi, qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlıq istiqamətində fəaliyyətin qurulması təşkil edir. Dövlət başçısı tərəfindən həyata keçirilən məqsədyönlü xarici siyasət nəticəsində ölkəmizin istər Qərb dövlətləri ilə, istərsə də yaxın region ölkələri ilə münasibətləri get-gedə genişlənir.

Qətiyyətlə deyə bilərik ki, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin yeritdiyi daxili və xarici siyasəti böyük əzmlə, inamla müdafiə edir. Bütün bunların nəticəsidir ki, bu illər ərzində Yeni Azərbaycan Partiyası ölkəmizdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində ölkə ictimaiyyətinin böyük siyasi dəstəyini qazanaraq bir iqtidar partiyası kimi öz siyasi mövqeyini qoruyub saxlamaqdadır. Dünənin, bu günün və gələcəyin partiyası olan Yeni Azərbaycan Partiyası möhtərəm İlham Əliyevin rəhbərliyi ilə öz sıralarında 630 mindən artıq ölkə vətəndaşını birləşdirərək hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu, respublikamızın ərazi bütövlüyünün təmin olunması, bazar münasibətləri əsasında iqtisadiyyatın inkişafı, cəmiyyətin hər bir üzvünün maddi rifah halının yüksəldilməsi, beynəlxalq aləmə sürətlə inteqrasiya istiqamətində inamla irəliləyir.

2013-cü il dekabrın 28-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü çağırış doqquzuncu sessiyasında 2014-cü ilin Naxçıvanda "Muxtariyyət ili" elan edilməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2014-cü il 14 yanvar tarixli Sərəncamı ilə bu ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinin yüksək səviyyədə qeyd edilməsi, yubiley mərasimində ölkə Prezidentinin şəxsən iştirakı bütün muxtar respublika ictimaiyyəti kimi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının üzvləri üçün də yüksək əzmlə fəaliyyət göstərməyə stimul vermişdir.

Yeni Azərbaycan Partiyasının məhz Naxçıvanda yaranması, partiya liderinin xalqın çağırışı ilə Azərbaycanda siyasi hakimiyyətə buradan qayıdışı Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının formalaşmasında mühüm amil olmuşdur. Ötən illər ərzində ulu öndər Heydər Əliyevin siyasi idealları ilə inkişaf edən partiyanın muxtar respublika təşkilatı cəmiyyətin bütün zümrələrindən olan insanların hesabına genişlənmiş və güclənmişdir. 1992-ci ildə öz sıralarında 1118 nəfəri, 2002-ci ildə 20 min nəfər üzvü birləşdirən təşkilat, hazırda 51025 nəfər üzvü vahid siyasi əqidə ətrafında toplamışdır. Bu, muxtar respublikanın siyasi fəal əhalisinin 19 faizindən çoxu deməkdir. 8 rayon (şəhər), 797 ərazi ilk partiya təşkilatında birləşən, üzvlərinin say tərkibinin əsas hissəsi ziyalılar, gənclər və qadınlar olan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı diyarımızın ictimai-siyasi və sosial-iqtisadi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Təşkilat 2010-cu il parlament seçkilərinin nəticələrinə görə 3 üzvlə Azərbaycan Respublikasının Milli Məclisində, 41 üzvlə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində, 2009-cu ildə keçirilmiş seçkinin nəticələrinə əsasən, 1136 üzvlə muxtar respublikamızın bələdiyyə orqanlarında təmsil olunur. Təşkilat üzvlərinin 41,2 faizini qadınlar, 42,7 faizini gənclər təşkil edir. Muxtar respublikamızın əsas ziyalı potensialı da məhz Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatında təmsil olunur. Belə ki, təşkilat üzvlərindən 2 nəfəri akademik, 7 nəfəri AMEA-nın müxbir üzvü, 17 nəfəri elmlər doktoru, professorlar, 207 nəfəri isə müxtəlif elmlər üzrə fəlsəfə doktoru, dosentlərdir.

Bu gün Azərbaycan iqtidarının, Yeni Azərbaycan Partiyasının qüdrəti, yenilməz gücü Heydər Əliyevin müstəqillik və dövlətçilik ideologiyasının qətiyyətlə həyata keçirilməsindən irəli gəlir. Naxçıvan Muxtar Respublikasına 19 ildir, uğurla rəhbərlik edən Heydər Əliyev məktəbinin layiqli davamçısı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbovun muxtar respublikada gördüyü böyük quruculuq işləri, yaratdığı ictimai-siyasi sabitlik, xalqa olan bağlılığı dövlətə və Heydər Əliyev ideyalarına olan sədaqətin bariz nümunəsidir. Son dövrlərdə blokadada olmasına baxmayaraq, muxtar respublikada tikilən çoxsaylı məktəblər, yeni-yeni körpülər və bütün sahələri kompleks şəkildə əhatə edən digər sosial infrastruktur obyektləri, Naxçıvan şəhərində və eləcə də muxtar respublikanın digər yaşayış məntəqələrində aparılan geniş tikinti-quruculuq və abadlıq işləri hər bir sakində böyük iftixar hissi yaradır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən bu siyasət iqtidar partiyası kimi Yeni Azərbaycan Partiyasının nüfuzunu artırmış, partiyanın muxtar respublika təşkilatının siyasi proseslərə yüksək səviyyədə təsir gücünü təmin etmişdir. Ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda həyata keçirdiyi tarixi xilaskarlıq missiyası bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yeni dövrün tələblərinə adekvat şəkildə həyata keçirdiyi quruculuq işləri ilə uğurla davam etdirilir. Bu gün Naxçıvan Muxtar Respublikası öz rəhbərinin simasında novator dövlət xadiminin həyata keçirdiyi operativ inkişaf meydanına, yalnız ölkəmizin deyil, həm də regionumuzun sürətlə tərəqqi edən bölgəsinə çevrilmişdir.

Muxtar respublikanın əsas makroiqtisadi göstəricisi olan ümumi daxili məhsul 2003-cü ildəki göstəricini 2013-cü ildə 8,4 dəfə üstələyərək 2 milyard 339 milyon manat olmuşdur. Son 10 ildə sənaye məhsulunun həcmi 49 dəfə, əsas kapitala yönəldilən investisiyalar 16,4 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 4,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 2,6 dəfə, informasiya və rabitə xidmətləri 10,3 dəfə, ixracın həcmi 96,6 dəfə, əhalinin gəlirləri 10,2 dəfə, orta aylıq əməkhaqqı isə 9,8 dəfə artmışdır. Bu dövrdə muxtar respublikada 7 elektrik enerjisi istehsal edən müəssisə yaradılmışdır. 2004-cü il yanvarın 1-dən 2014-cü il yanvarın 1-dək muxtar respublikada 58 min 350 yeni iş yeri yaradılmışdır ki, bunların da 41 min 891-i daimi iş yerləridir. Muxtar respublikanın sosial-iqtisadi yüksəlişi əhali sayının sürətli artımı ilə müşayiət edilmiş, son 10 ildə muxtar diyarımızın sakinlərinin sayı 65,3 min nəfər artaraq 2014-cü il oktyabrın 1-ə olan məlumata görə 439 min nəfərdən artıq olmuşdur.

Bütün bunlar sübut edir ki, ötən illər ərzində ölkəmizdə əhəmiyyətli və fundamental islahatlar həyata keçirilmiş və bu prosesdə cəmiyyətin avanqard qüvvəsi kimi Yeni Azərbaycan Partiyası öz liderinin rəhbərliyi ilə fəal rol oynamışdır. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası qarşısına qoyduğu məqsəd və vəzifələri uğurla yerinə yetirir. Ölkəmizdə partiyamızın hakimiyyəti dövründə keçirilən bütün seçkilər Azərbaycanın dünyəvi, hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla addımladığını bütün dünyaya bir daha sübut etmişdir. Bu baxımdan 2013-cü ilin prezident seçkilərindən öz lideri cənab İlham Əliyevin parlaq zəfəri ilə çıxan partiyanın 2014-cü ilin dekabr ayında keçiriləcək bələdiyyə, 2015-ci ilin noyabr ayında keçiriləcək parlament seçkilərində də zəfər məşəlini öz əlində saxlayacağını bəri başdan qətiyyətlə söyləmək olar.

***"Həyat yerində durmur, qarşımıza yeni tələblər çıxır. Amma prinsipial istiqamət, ideoloji istiqamət dəyişməz olaraq qalır. Bu, Heydər Əliyev fəlsəfəsidir, siyasətidir, ideologiyasıdır... Mən sizi əmin etmək istəyirəm ki, bütün məsələlərdə, o cümlədən partiya quruculuğu istiqamətində də Heydər Əliyev siyasətinə sadiq qalacağam. Əminəm ki, biz hamımız birlikdə həm partiyamızı gücləndirəcəyik, həm də ölkəmizi daha da inkişaf etdirəcəyik"***, *– deyən ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev Azərbaycan dövləti ilə Yeni Azərbaycan Partiyasının gələcəyinin ayrılmaz olduğunu belə ifadə etmişdir:* ***"Azərbaycanın gələcəyi Yeni Azərbaycan Partiyası ilə bağlıdır! Azərbaycanın gələcəyi Heydər Əliyevlə və onun siyasəti ilə bağlıdır"!***

***Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyi***

*Jurnalistin qeydləri*

# Zeyvənin xoş günləri

***"Çətin günün ömrü az olar" deyib ata-babalarımız***



Kamilin Zeyvə kəndinin üstündəki "Dematlar"da əkdiyi buğda sahəsi dən tutar-tutmaz susuzluqdan saralırdı. Döyməditi qapı, şikayət etmədiyi təşkilat qalmamışdı, hər yerdə də eyni cavabı alırdı: "Elektrik enerjisi çatmadığına görə su nasosları normal işləyə bilmir. Özünü çox yorma…"

Qurumuş kanala, ondan ayrılan arxlara, saralan zəmiyə bir də nəzər yetirdi, baxdıqca az qala ürəyinin yağı əriyirdi. Başına hava gəlmiş adamlar kimi özözünə danışır, gileylənirdi: "Belə də iş olar, əkirik, becəririk, hasilə gələn vaxt gözümüzün qabağında məhsul zay olur. Yayın bu cırhacırında nasosu iki-üç saatdan bir vururlar. Su zəminin başına çatmamış işıqlar sönür. Görünür, mövsümün sonunda yenə də əliboş qalacağıq".

Bu düşüncələrlə bir də baxıb gördü ki, həyətə çatıb. Adəti üzrə yüngülcə öskürdü, həyat yoldaşının səsi həyətin aşağı tərəfindən gəldi:

– Gəlirəm.

Kamil soruşdu:

– Oralarda nə itirmisən, tapa bilmirsən?

Arvadın cavabı ərinin dərd dolu yükünü bir az da ağırlaşdırdı:

– Olub-qalan odunumuz da bu gün qurtardı, yemək təzəcə bişməyə başlayırdı ki, ocaq söndü. Dedim, bir-iki çır-çırpı tapıb alışdırım ki, axşama kimi xörək, çay hazır olsun.

– Gərək uşağı göndərəydin qonşudan da soruşaydı, o gün ərik ağacını kəsirdilər.

– Uşaq evdə nə gəzir, 2-3 saat bundan əvvəl araba ilə getdi ki, hamamın yanındakı arteziandan su gətirsin, hələ də gəlməyib. Yəqin, işığın yanmasını gözləyir?

Kamil astadan deyindi:

– Qaz yox, işıq yox, su yox… Belə də yaşayış olar?

Sonra arvadının da bərk narahatlıq keçirdiyini görüb ona təskinlik verməyə çalışdı:

– "Elnən gələn qara gün toy-bayramdı", bir də "Çətin günün ömrü az olar" deyib ata-babalarımız. İllərin, əsrlərin sınağından çıxmış misallardı bunlar. İnşallah, vaxt yetişər, hər iş qaydasına düşər.

Onda müstəqilliyini yenicə əldə etmiş respublikamızın hələ tam bərkiməmiş qoşa qanadından biri sayılan Naxçıvanda vəziyyət belə idi. Elektrik enerjisi, qaz kəsildiyindən camaat xörək, çay hazırlamaq, qışda mənzilləri qızdırmaq üçün hətta köklü meyvə ağaclarına belə qıyırdı. Ulu öndər Heydər Əliyev Naxçıvanın həmin dövrdəki ağır vəziyyətini qısaca belə xarakterizə edirdi: ***"Naxçıvanda qışda şaxta 40 dərəcəyə qalxırdı. Ağır illər idi, çətin dövr idi. Su, elektrik enerjisi çatışmırdı, qaz, istilik yox idi, ərzaq sarıdan çətinlik çəkirdik. Xatirinizdədir, mən sizə dəfələrlə dedim, bərabər yaşayacağıq. Əgər ac qalsaq da, hamımız bir yerdə ac qalacağıq. Ancaq nə qədər çətin olsa da, donmadıq, ac da qalmadıq. Şaxta olsa da, yaşadıq, bu çətin dövrdən çıxdıq…"***

Onda infrastrukturlar blokadanın məngənəsində "boğulduğundan" sənaye və kənd təsərrüfatı, demək olar ki, tam iflic vəziyyətə düşmüşdü. Ümidi hər yerdən üzülmüş camaatın əli işdən soyumuşdu, kim nə etdiyini, sabah nə işlə məşğul olacağını planlaşdıra bilmirdi. Dəyişilməkdə olan ictimai-siyasi quruluşun – bazar iqtisadiyyatına keçidin mahiyyətindən də çoxları bixəbər idi. Üzüm və meyvə bağlarına vurulan baltalar, nəzarətsiz, sahibsiz qalan maşın-traktor parklarındakı texnikaların, nasos stansiyalarındakı qiymətli aqreqatların sökülüb hissə-hissə daşınması, çoxları kimi, Kamili də bərk narahat edirdi, heç dincliyi yox idi, bilmirdi ki, neyləsin.

Belə idi muxtar respublikamızın həmin illərdəki mənzərəsi. Dağları qədər əyilməz, dözümlü və möhkəm iradəli insanlarının, ən əsası isə bu insanların inandığı, etibar etdiyi siyasət nəhənginin düşünülmüş planları, qəbul etdiyi proqramlar, həyata keçirdiyi ciddi kadr islahatları sayəsində Naxçıvan və naxçıvanlılar, nəhayət ki, bütün çətinliklərdən uğurla çıxa bildi.

Və doxsanıncı illərin ortalarından sonra muxtar respublikamızın hər yerində açıq-aşkar görünürdü ki, zamanın axarı öz səmtini müsbətə doğru sürətlə dəyişir. Heç də təsadüfi deyil ki, 1995-ci il muxtar respublikamızda intibahın başlanğıc tarixi kimi dəyərləndirilir. Hər ayı, hər ili uğurlu nəticələrlə yaddaşlara köçən bu zaman axarının ilk günlərindən hərarətli Günəş donmuş həyatı yenidən isitdi, bol sulu çaylarımız, bu çaylardan qidalanan kanallar, arxlar tarlaları cana gətirdi. Əli iş tutanların çoxunun məşğul olduğu aqrar sektorun, sənayenin inkişafı və əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı məqsədilə sürətli islahatların həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarına yardım mexanizmlərinin formalaşması layihələrinin icrası çərçivəsində görülən işlər gün keçdikcə öz bəhrələrini verməyə başladı.

***"Dematlar"ı suvarma suyu ilə təmin edən nasos stansiyasının bərpası, hamı kimi, Kamili də çox sevindirdi***

Planlı şəkildə həyata keçirilən tədbirlər kəndlini yenidən torpağa bağladı, məlum səbəblərdən bir neçə il baxımsız qalmış torpağa dövlət qayğısı ilə yeni həyat verildi. Bu qayğının bir hissəsi kimi Zeyvə kəndinin üstündəki "Dematlar"ı suvarma suyu ilə təmin edən nasos stansiyasının bərpası və "Zeyvə-2" nasos stansiyasının tikintisi, hamı kimi, Kamili də sevindirdi. Hazırda bu nasos stansiyalarının altındakı 300 hektardan artıq torpaq sahəsindən Zeyvədüdəngələlər hər il xeyli gəlir götürürlər. Bu da həm kəndlinin ailə büdcəsinə, həm də ölkə iqtisadiyyatına xeyli mənfəət gətirir.

İslahatlar zamanı Kamil İsmayılovun ailəsinə 2,5 hektar torpaq payı düşmüşdü. Nasoslar işə salınandan sonra ailə üzvləri əl-ələ verib bu sahələrdə müxtəlif kənd təsərrüfatı bitkiləri əkdilər və yaxşıca qazanc götürdülər. Gördükləri işin səmərəsini hiss etdikdən sonra Kamil "Dematlar"dan əlavə torpaqlar da icarəyə götürüb əkməyə başladı, ilbəil əkin sahələrini genişləndirərək 50 hektara çatdırdı. Qeyd edək ki, bir vaxtlar boş qalmış bu sahələrə nasos stansiyaları vasitəsilə artıq istənilən vaxt su çıxarıla bilir. Ona görə də "Dematlar"da, demək olar ki, əkilməyən torpaq qalmayıb.

"Amil-Famil qardaşları" kəndli-fermer təsərrüfatının rəhbəri Kamil İsmayılovla söhbətimiz taxıl əkini sahəsinin kənarında oldu. Öyrəndik ki, o, 1976-cı ildən təsərrüfatla məşğuldur. Qırx ilə yaxın müddətdə qazandığı təcrübə bu gün də "əlindən tutur". Deyir ki, şumdan tutmuş əkinə, becərməyə, məhsulun toplanmasına qədər bütün aqrotexniki tədbirlər vaxtında, tələb olunan qaydada yerinə yetirildiyinə görə kollektivin zəhməti hədər getmir.

***"Şəhərdən nəyimiz kəsirdir axı…"***

Kamil axşamçağı Zeyvədəki ximət mərkəzinə gəldi. Ərzaq mağazasının satıcısından sabah üçün lazım olan meyvə-tərəvəzlərin sifarişlərini öyrənib dəftərçəsinə qeyd elədi. Yaraşıqlı, ikimərtəbəli kənd mərkəzinin qarşısındakı gülkarlıqda qoyulan oturacaqda əyləşən kənd ağsaqqalları İmran Aslanovla və Muxtar İsmayılovla salamlaşıb, hal-əhval tutdu. Yaşı səksəni adlamış İmran kişi yanında Kamilə yer göstərdi və əkin-biçindən söz saldı:

– Eşitmişəm, maşallah, işlərin yaxşı gedir. 15-20 il bundan əvvələ kimi "Dematlar" mal-heyvan otlağı olmuşdu. Hələ kolxoz dövründə burada 4-5 hektara toxum səpərdilər, ümid isə təkcə yağışa idi. Beləcə, məhsulun xərci borcunu ödəmirdi. İndi isə, sağ olsunlar səbəbkarlar, nasoslar gecə-gündüz bol su verir.

Muxtar kişi deyilənlərə qüvvət verdi:

– Düz deyirsən, İmran, daha kəndlinin heç bir problemi qalmayıb, su, texnika, gübrə, məhsuldar toxumlar istənilən qədərdir.

Sonra əli ilə yaxınlıqdakı üçmərtəbəli məktəb binasına, ikimərtəbəli həkim ambulatoriyasına, bu binaların həyətlərindəki yaşıllıqlara, asfalt örtüklü geniş yola, yolun kənarlarında cərgələnmiş çinar ağaclarına işarə edərək söhbətinə davam etdi:

– İnanmaq olmur ki, Zeyvə qısa zamanda belə dəyişilib, elə bil ki, şəhərdir. Bir də şəhərdən nəyimiz kəsirdir axı? Qazımız bir dəqiqə kəsilmir, Arpaçayın üstündə tikilmiş elektrik stansiyalarından fasiləsiz işıq alırıq, hər evdə telefon var. Yaxşı oxuyan, təhsil alan uşaqlarımızın sayı ildən-ilə artır. Sakinlər özlərinə ikiüç mərtəbəli yaraşıqlı evlər tikirlər, həyətlərə artezian quyularından içməli su xətti çəkilib, şəhərdən axşama kimi rayon mərkəzinə avtobuslar gedib-gəlir.

Kamil də gülümsəyərək söhbətə qoşuldu:

– Görürəm, maşallah, hamısından xəbərdarsınız, doğrudan da, son illər Zeyvədə çox işlər görülüb. Hələ bilmədikləriniz də var, artıq mərkəzləşmiş içməli su və kanalizasiya xəttinin də çəkilişinə başlanılıb, hər bir ev bu xətlərə qoşulacaq.

Sonra evə dönən Kamil bir vaxtlar məcburiyyət qarşısında qalıb kəsdiyi meyvə ağaclarının yerində təzədən sıralanan və artıq bara düşmüş ağaclara həvəslə tamaşa etdi. Krandan tökülüb xırdaca arxla burula-burula axan suya baxdı, uşaqlarının bir içim su üçün 2-3 kilometrlik yol qət edib hamamın yanındakı yeganə arteziana getdiyi günləri, burada saatlarla işığın yanmasını gözləmələrini yadına saldı. Bu günümüzə şükür etdi və əl-üzünü bumbuz suda yaxşıca yuduqdan sonra içəri keçdi.

Elə bu vaxt həyət qapısı açıldı, qonşu Cəfər idi.

Kamil, – Halal qismət üstünə gəlmisən, əyləş görək, – deyib qonşusuna yer göstərdi.

Süfrə ətrafında söz-sözü gətirdi, qonşular, nə qədər çətin olsa da, dünəni yadlarına saldılar və bugünkü xoş günlərdən, əmin-amanlıqdan, bolluqdan, bərəkətdən həvəslə danışdılar. Bu məqamda diqqətlərini televiziya diktorunun elan elədiyi yeni proqram çəkdi: "Muxtar respublika əsası 1995-ci ildən qoyulmuş sosial-iqtisadi inkişafın yeni mərhələsindədir…"

***Beləcə, zamanın doxsanıncı illərinin ortalarından başlayan və hərtərəfli inkişafa, tərəqqiyə, yüksəlişə istiqamətlənmiş axarı muxtar respublikamızın bütün yaşayış məntəqələri kimi, Şərurun Zeyvə kəndini də ağuşuna alıb. İnsan amilinə, xalqın gün-güzəranının yaxşılaşmasına, abadlığa, quruculuğa, sənayenin, aqrar sahənin inkişafına aparan bu zaman axarı öz səmtini əvvəlcədən düzgün müəyyənləşdirilmiş Heydər Əliyev siyasətindən götürüb və bu siyasət bölgə sakinlərini daha işıqlı, daha nurlu günlərə doğru inamla aparır.***

**Elman MƏMMƏDOV**

***Məqalə "Muxtariyyətin intibahı: 1995-2014" müsabiqəsinə təqdim olunmaq üçündür***

---

***Son illər muxtar respublika iqtisadiyyatında yüksək templə inkişaf edən sahələrdən birinə çevrilən və yerli istehsalın stimullaşdırılmasında mühüm əhəmiyyətə malik olan sənaye sektorunda həyata keçirilən tədbirlər nəticəsində Naxçıvanda idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən rəqabətqabiliyyətli müəssisələr həyata vəsiqə alıb.***

*İstehsal müəssisələri*

# Panel-Radiator və Dam Örtükləri Zavodunun istehsal etdiyi məhsullar xarici bazara çıxarılır

Belə müəssisələrdən biri də "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının Panel-Radiator və Dam Örtükləri Zavodudur. Müəssisə muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində inşaat materiallarına artan tələbatın yerli istehsal hesabına ödənilməsi zərurətindən yaranıb. Ümumi ərazisi 10 min 330 kvadratmetr olan zavodda Almaniya və Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün geniş imkanlar yaradılan zavodda illik istehsal gücü 90 min metr olan panel-radiator istehsalı sahəsində 60x50 və 50x50 santimetrdən 3 metrə qədər ölçülərdə panel-radiator istehsal edilir. Gündəlik istehsal gücü 4800 kvadratmetr olan dam örtükləri istehsalı sahəsində isə uzunluq ölçüsü sifarişçi tərəfindən verilən, 105 santimetr enində rəngli və rəngsiz dam örtükləri istehsal olunur. Əvvəllər bu inşaat materiallarına olan tələbat xaricdən idxal olunan məhsullar hesabına ödənilir, əlavə daşınma xərci çəkilirdisə, hazırda bu problem aradan qaldırılıb.

Bütün bunlar barədə məlumat verən mühəndis Anar Bağırov onu da qeyd etdi ki, müəssisədəki keyfiyyətə nəzarət sistemi istifadə olunan materialların və hazır məhsulların davamlılığını, uzunömürlülüyünü artırır. Xammal Türkiyə Respublikasından idxal olunur. Burada istifadə olunan materialların bir qismi isə Naxçıvana məxsusdur. Təcrübəli mütəxəssislərin çalışdığı müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal əmək şəraiti yaradılıb. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir. Kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş texnoloji avadanlıqlar vasitəsilə verilən sifarişə uyğun işlər avtomatik olaraq yerinə yetirilir. Panel-radiatorun ayrı-ayrı detalları müxtəlif mərhələlər keçməklə hazırlanıb avtomatik qaynaq edilir və qaynaq işlərinin keyfiyyəti 8-9 atmosfer təzyiqlə test-yoxlamadan keçirilir. Sonra isə iki mərhələdə boyaq işləri görülür. Birinci mərhələdə panel-radiator sulu boya ilə boyanıb xüsusi sobada 170 dərəcə istilikdə, ikinci mərhələdə isə tunel sobada 24 dəqiqə ərzində 215 dərəcə istilikdə elektrostatik toz boya ilə boyanıb qurudulur. Hazır məhsul xüsusi avadanlıqlarda paketlənib sifarişçilərin ünvanlarına göndərilir. Dam örtükləri istehsalı sahəsində isə dəmir listlər xüsusi qəliblərdə sıxılıb sifarişə uyğun kəsilir. Rəngli dam örtükləri tunel sobada xüsusi texnologiya – elektrostatik toz boya ilə boyanır.

Müəssisədə fəaliyyət göstərən laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarəti təmin edir. Hazırlanan məhsullar muxtar respublikamızda fəaliyyət göstərən ayrı-ayrı ticarət obyektlərində və "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının Bakı şəhərində fəaliyyət göstərən satış mərkəzi vasitəsilə ölkəmizin digər regionlarında və xarici bazarlarda satışa çıxarılır. "Cahan" İnşaat Materialları satış mərkəzində və digər topdansatış bazalarında ayrı-ayrı rayonlardan gəlmiş alıcılar – Əliyar Quliyev, Nizami Məhərrəmov, Sahib Qədimov, Cahangir Qafarov və başqaları keyfiyyət göstəriciləri ilə seçilən bu məhsulların xaricdən idxal edilən oxşar məhsullardan daha münasib qiymətə satışa çıxarıldığını bildirdilər.

Məhsulları keyfiyyəti ilə seçilən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının Panel-Radiator və Dam Örtükləri Zavodu qısa zamanda rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Burada istehsal olunan məhsullar daxili və xarici bazarlarda özünə xeyli alıcı toplayıb. Müəssisədə istehsal olunan məhsulların xarici bazarlarda tanıdılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir, biznes-forumlarda və sərgilərdə yaxından iştirak edilir, istehsal olunan məhsullar nümayiş etdirilir, xarici şirkətlərin nümayəndələri ilə fikir mübadilələri aparılır, bu sahə ilə məşğul olan sahibkarların təcrübələrindən bəhrələnməklə xarici bazarlardan daha çox alıcı cəlb edilməsinə çalışılır. Həyata keçirilən kompleks tədbirlərin nəticəsidir ki, istehsal edilən keyfiyyətli məhsulların xarici ölkələrə ixracı və satışı təmin edilib. Cari ildə də bu mühüm əhəmiyyətli sahə diqqət mərkəzində saxlanılıb, ötən 10 ayda tələbata uyğun müxtəlif ölçülərdə 1576 ədəd panel-radiator və 24 min 652 kvadratmetr dam örtüyü istehsal olunub, anbarda yaradılan ehtiyatla birlikdə 2240 ədəd panel-radiator və 37 min 265 kvadratmetr dam örtüyü satışa çıxarılıb.

Son illər həyata vəsiqə alan istehsal müəssisəsi daxili və xarici bazarı yüksəkkeyfiyyətli sənaye məhsulları ilə təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasına da əlverişli şərait yaradıb, burada 51 nəfər daimi işlə təmin edilib. İşçilərdən Həsən Ələkbərov, Cabir Sadiqov, Nizami Rəhimov, Ağa Ağazadə və başqaları onlara yaradılan şəraitə və göstərilən qayğıya görə minnətdarlıqlarını ifadə etdilər. Qeyd etdilər ki, yüksək əməkhaqqı, xüsusi geyim formaları, gündə bir dəfə isti yemək və servis xidməti ilə təmin olunan kollektiv bazarın tələbatına uyğun keyfiyyətli məhsul istehsal edib satışa çıxarılması üçün mövcud imkanlardan səmərəli istifadə etməyə bundan sonra da səy göstərəcək.

**Kərəm HƏSƏNOV**

# Naxçıvan şəhəri

## 12 nömrəli tam orta məktəb

dünən



bu gün



## Azərbaycan Uşaqlarının III Ümumrespublika Forumu keçirilib

***Uşaq hüquqlarının tam təmin edilməsi, onların problemlərinin ardıcıl həlli ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Respublikamızın sürətli iqtisadi inkişafı sosial problemlərin həlli üçün etibarlı zəmin yaradır. Bu baxımdan son illərdə ölkəmizdə uşaqların sağlamlığının möhkəmləndirilməsi, onların müasir tələblər səviyyəsində təhsil almaları üçün lazımi şəraitin təmin edilməsinə yönəlmiş mühüm addımlar atılmaqdadır.***

Uşaqların öz hüquqları ilə bağlı qərarların qəbul edilməsində iştirakını təmin etmək, uşaqlara öz problemləri ilə bağlı təşəbbüslərlə çıxış etmək və təkliflər vermək imkanı yaratmaq, həmçinin ictimaiyyətin diqqətinin uşaq hüquqlarının qorunmasına yönəltmək məqsədilə 2009-cu ildə Azərbaycan Uşaqlarının I, 2011-ci ildə isə Azərbaycan Uşaqlarının II Ümumrespublika Forumunun keçirilməsi uşaqların hərtərəfli inkişafı, elmi-mədəni biliklərə yiyələnmələri, milli-mənəvi dəyərləri mənimsəmələri baxımından diqqətəlayiqdir. Forumlar ölkə üzrə bütün şəhər və rayonları təmsil edən uşaqların iştirakı ilə keçirilib. Ötən müddət ərzində forumlarda iştirak edən uşaqlar tərəfindən səsləndirilən bütün təkliflər hökumət tərəfindən hazırlanan müxtəlif proqramlarda öz əksini tapıb. Forum həm də əsas verir ki, hər bir uşaq onu düşündürən, narahat edən məsələləri dilə gətirsin, problemlərin birgə həlli yollarını araşdırsın. Məhz bu forumlar istedadlı uşaqların üzə çıxmasında mühüm rola malikdir. Həmçinin forum uşaqların ictimai fəallıqlarının artırılmasında, iştirak hüququnun təmin edilməsində və liderlik keyfiyyətlərinin formalaşmasında mühüm əhəmiyyətə malikdir.

Bu il noyabr ayının 17-də Bakı şəhərində Azərbaycan Uşaqlarının III Forumu keçirilib. Foruma Azərbaycanın bütün şəhər və rayonlarından öz fəallığı və intellektual səviyyəsi ilə seçilən, fikirlərini sərbəst şəkildə ifadə edə bilən 350 nəfərə yaxın uşaq, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqlar, sağlamlıq imkanları məhdud, digər millətlərdən olan, valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün ailələrindən olan uşaqlar nümayəndə qismində seçiliblər. Forum çərçivəsində uşaqların əl işlərindən ibarət sərgi də nümayiş olunub.

Qeyd edək ki, bu forumda muxtar respublikamızı şəhər və rayon məktəblərindən, Heydər Əliyev adına Hərbi Liseyin, Heydər Əliyev adına tam orta məktəbin və Qızlar Liseyinin hər birindən 1 uşaq olmaqla, ümumilikdə, 10 uşaq təmsil edib.

Dövlət Himnimizin oxunması ilə başlanan forumda ölkə Prezidenti cənab İlham Əliyevin forum iştirakçılarına təbrik məktubu oxunub.

Forum çərçivəsində dövlət müəssisələrinin, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri çıxışlar edib, uşaqların suallarını cavablandırıblar.

Forum zamanı uşaqlar üçün aktual olan mövzular – "Vətəni sevək və ona layiq olaq", "Uşaqlar üçün bərabər hüquq və imkanlar", "Təhsildə yeni standartların tətbiqi", "Uşaqlar və internet təhlükəsizliyi", "Ətraf mühitin mühafizəsi. Sağlam həyat tərzi", "Asudə vaxtın səmərəli təşkili və dəyərləndirilməsi", "Uşaqların şəxsiyyət kimi formalaşmasında ailə və cəmiyyətin rolu və məsuliyyəti", "Qarabağ həqiqətlərini dünyaya çatdıraq" mövzuları üzrə aidiyyəti dövlət orqanlarını təmsil edən ekspertlərin iştirakı ilə qruplarda müzakirələr aparılıb. Muxtar respublikanı təmsil edən uşaqlar bu müzakirələrdə fəal iştirak edib, təkliflər səsləndiriblər.

Sonda forum iştirakçıları adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanıb. Həmçinin Azərbaycan uşaqları adından dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara bəyanat göndərilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Özbəkistanda həyata keçiriləcək kəhrizbərpa işlərində Naxçıvan təcrübəsindən istifadə olunacaq

***Naxçıvan Dövlət Universitetinin (NDU) Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi kafedrasının müdiri, Beynəlxalq Ekologiya, İnsan və Təbiətin Təhlükəsizliyi Akademiyasının həqiqi üzvü, aqrar elmləri doktoru, professor Əlövsət Quliyevin "Müstəqillik illərində Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində qədim kəhrizlərin bərpası və yenilərinin layihə olunması" mövzusunda yazdığı məqalə Özbəkistan Respublikasının alimləri arasında geniş səs-səda doğurub.***

Ölkələrinin ekoloji vəziyyətindən, Aral dənizi problemindən, su ehtiyatlarının azalmasından narahat olan Özbəkistan alimləri bu ölkədə keçirilən beynəlxalq tədbirə professor Əlövsət Quliyevi də dəvət ediblər.

NDU-nun professoru Əlövsət Quliyev Özbəkistan alimləri ilə birlikdə Daşkənd şəhərində adıçəkilən məsələ ilə bağlı beynəlxalq müzakirələr və ekspedisiyalarda iştirak edib. Beynəlxalq tədbirdə Özbəkistanda içməli və suvarma suyunun azalması, vaxtı ilə olan kəhrizlər, onların mövcud vəziyyəti, kəhrizbərpa işlərinin aparılma mümkünlüyü, onlardan suvarmada, məişətdə istifadə və sair bu kimi məsələlər müzakirə edilib. Vurğulanıb ki, MDB ərazisində ilk dəfə Naxçıvan Muxtar Respublikasında aparılan kəhrizbərpa işlərinin, eləcə də Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin Kəhrizlər İdarəsinin yaradılmasının analoqu yoxdur.

Professor Əlövsət Quliyev Naxçıvan tarixinin müxtəlif dövrlərini əks etdirən sənədli filmləri, Naxçıvanın tarixinə, mədəniyyət və iqtisadiyyatına aid kitabları, CD-ləri Özbəkistan Respubikasının alimləri və beynəlxalq heyət üzvlərinə təqdim edib. Naxçıvan Muxtar Respublikası ilə qiyabi tanışlıq onlar tərəfindən böyük maraqla qarşılanıb. Həmçinin heyət üzvlərinə Naxçıvanda aparılan kəhrizbərpa işlərinə aid metodik vəsait, təhlükəsizlik tədbirlərinə aid tövsiyə və tədqiqat materialları təqdim edilib. Beynəlxalq tədbirdə bildirilib ki, Özbəkistanda həyata keçiriləcək kəhrizbərpa işlərində Naxçıvan təcrübəsindən istifadə olunacaq.



Məlumat üçün onu da qeyd edək ki, professor Əlövsət Quliyev bu yaxınlarda İran İslam Respublikasının Yəzd şəhərində keçirilən UNESCO-nun "Qədim hidravlik sistemlər – kəhrizlər" üzrə 6-cı dövlətlərarası İdarə Heyətinin cari toplantısında da iştirak edib. Onun "Naxçıvanda aparılan kəhrizbərpa işləri, Orta Asiya kəhrizləri və Böyük İpək Yolu" mövzusunda məruzəsi dinlənilib. Məruzə maraqla qarşılanıb, Böyük İpək Yolunun (Çin, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan və Azərbaycan ölkələri olmaqla) karvan yolları, bu yollar üzərində yerləşən karvansaralar, sərdabələr, kəhrizlər, su quyuları və qədim şəhərlər barədə məlumatların toplanaraq tədqiqat işlərinin aparılması qərarına gəlinib. Həmyerlimizin məruzəsində önə çəkilən problemin elmi surətdə əsaslandırılması (dünyada içməli su problemi, iqlimin dəyişməsi, baş verən kataklizmlər) qədim İpək Yolu (4 min islədək fəaliyyət göstərmiş) mədəniyyəti izlərinin gələcəkdə daha geniş surətdə tədqiq olunmasına zəmin yaradıb.

**Mina QASIMOVA**

***Naxçıvan Müəllimlər İnstitutunda ixtisasartırma kursuna cəlb edilən məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçi-müəllimləri üçün təşkil olunmuş 10 günlük ixtisasartırma kursu başa çatıb.***

## İxtisasartırma kursu başa çatıb



Kurs iştirakçılarına sertifikatların verilməsi münasibətilə keçirilən tədbiri institutun rektoru, professor Oruc Həsənli açaraq bu gün Azərbaycan təhsil sistemində ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin uğurla davam etdirildiyini bildirib.

Vurğulanıb ki, məktəbəqədər təhsil təhsilin ilk pilləsi olmaqla ailənin və cəmiyyətin maraqlarına uyğun, uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətlərinin üzə çıxarılmasını, sağlamlıqlarının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətlərinin formalaşmasını təmin edir. Danılmaz həqiqətdir ki, maddi sərvətlərin insan kapitalına çevrilməsinin təməli məhz məktəbəqədər təhsil müəssisələrində qoyulur.

Sonra Naxçıvan Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Orxan Məhərrəmov, institutun müəllimi Mənsim Tarverdiyev və Naxçıvan şəhərindəki 4 nömrəli uşaq bağçasının müəllimi Ulduz Kərimova çıxış edərək məktəbəqədər müəssisələrdə çalışan metodist və tərbiyəçi-müəllimlər üçün təşkil edilən belə kursların əhəmiyyətindən danışıblar.

Sonda kursda iştirak edən tərbiyəçi-müəllimlərə sertifikat və institutun kurikulum mərkəzində elektron formada hazırlanmış metodik vəsaitlər təqdim edilib.

## Aztəminatlı ailəyə qayğı göstərilib

Aztəminatlı ailələrin sosial müdafiəsinin yaxşılaşdırılması üçün onlara sosial yardımların verilməsi, müntəzəm olaraq belə ailələrə baş çəkilməsi, sosial problemlərinin aradan qaldırılması üçün tədbirlər görülməsi dövlətimizin həmin ailələrə həssas yanaşmasının göstəricisi və böyük qayğı kimi dəyərləndirilir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə və Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Culfa rayonunun Əbrəqunus kəndində yaşayan Məmmədovlar ailəsinə baş çəkilib. Ailənin yaşayış vəziyyəti ilə maraqlanılıb, ailə üzvləri tibbi müayinədən keçirilib, onlara məişət əşyası və ərzaq payı verilib.

Ailə üzvü Xəyalə Məmmədova dövlətimizin göstərdiyi diqqət və qayğıya görə minnətdarlığını bildirib.

**Xəbərlər şöbəsi**

*İtmişdir*

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 2, ev 29-da yaşamış Həşimov Rza Həsən oğlunun adına olan 262 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Əsədov Balaş Sərbəst oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 976